**UOT 792.03**
**https://doi.org/10.59849/2218-4783.2025.1.285**

**ƏLƏKBƏR QASIMOV**

# NAXÇIVAN TEATRINDA VƏTƏNPƏRVƏRLİK MOTİVLİ ƏSƏRLƏRİN SƏHNƏ TƏCƏSSÜMÜ (1964-1990)

*Məqalədə 1964-1990-cı illərdə Naxçıvan Dövlət Musiqili Dram Teatrında vətənpərvərlik motivli əsərlər əsasında hazırlanmış tamaşalar xatırlanır, onların bir çoxu haqqında ətraflı məlumat verilir, bəziləri geniş təhlil olunur, onların yaradıcı heyətləri təqdim olunur.*

*Burada həmçinin 1964-cü ildən 1987-ci ilədək Naxçıvan Teatrının sənət həyatında, eyni zamanda təşkilati fəaliyyətində baş vermiş tarixi hadisələr və əlamətdar günlər də qeyd olunur. Həmin günlərdə, ayrı-ayrı vaxtlarda teatrın rejissorları, rəssam və aktyorlarının, o cümlədən digər əməkdaşlarının müxtəlif fəxri adlarla, fərdi təqaüd və mükafatlarla, fəxri fərmanlarla təltif olunmaları da işıqlandırılır.*

*Vətənpərvərlik motivli tamaşaların yeni nəsildə, xüsusən də gənclərdə vətənə məhəbbət hissinin gücləndirilməsində, milli ruhun formalaşmasında, tarixi hadisələrin ətraflı öyrənilməsində, onların dünyagörüşülərinin zənginləşməsində böyük əhəmiyyət daşıması da ayrıca vurğulanır.*

**Açar sözlər:** *Naxçıvan Teatrı, vətənpərvərlik, tamaşa, rejissor, rəssam, aktyor, musiqi.*

**Giriş.** Bu dövr ərzində Naxçıvan Dövlət Musiqili Dram Teatrında hazırlanmış vətənpərvərlik motivli tamaşalar, həmçinin onların ayrı-ayrılıqda yaradıcı heyətləri, eləcə də 1964-cü ildən 1990-cı ilə qədər olan dövr ərzində teatrın həyatında baş verən əlamətdar və tarixi hadisələr barədə mükəmməl məlumat əldə olunaraq toplanan materiallar təhlil edilib sistemləşdirilmiş və tədqiqat işi yazılı şəkildə yekunlaşdırılmışdır.

Burada qeyd etmək yerinə düşər ki, 1964-cü ildən bu yana, demək olar ki, 25 il ərzində Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulan vətənpərvərlik motivli əsərlərin hazırlığı zamanı bir prinsip əsas götürülmüşdür. Bu da ondan ibarət olmuşdur ki, vətənpərvərlik motivli hər hansı əsər onu tamaşaya hazırlayan milli teatrın ənənələrinə cavab verməli, məzmun və forma tamaşaçını düşündürməli, onun zövqünü oxşamalıdır. Buna görə vətənpərvərlik motivli əsəri tamaşaya hazırlayan rejissor ilk növbədə pyesdən öz xalqı üçün daha xarakterik olan keyfiyyətləri, problemləri ön plana çəkməli, səhnə ilə tamaşaçılar arasında canlı əlaqə yaratmağı qarşısına məqsəd qoymuşdur.

**Naxçıvan Teatrı yeni binada və Bakıya ilk səfər.** 1964-cü ildə Naxçıvan Teatrının tarixində çox mühüm və əlamətdar bir hadisə olur. Teatr həmin ilin oktyabr ayında şəhərin mərkəzində inşa olunmuş yeni, üçmərtəbəli, əzəmətli binaya köçürülür. Arxitektor H.Məcidovun müəllifi olduğu bu möhtəşəm yeni teatr binası beş ilə ərsəyə gəlmişdir. Üçmərtəbəli lojaları və amfiteatrı ilə birlikdə 600 nəfərlik tamaşa salonu, fırlanan “dairə”yə, orkestr “xəndəyi”nə və hər cür işıq və ştanqet sisteminə malik səhnəsi, 20-dən artıq qrim otağı, dekorasiya, emalatxana və sexlər üçün geniş otaqları, böyük foyeləri olan teatrın bu yeni binası kollektivi yeni yaradıcılıq uğurlarına ruhlandırdı.

Demək olar ki, 1964-cü ilin yanvar ayından Naxçıvan Teatrının profili rəsmi surətdə dəyişdirilmiş və ona “musiqili dram teatr” statusu verilmişdi. Yeni binaya köçürüldükdən sonra isə teatr Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı adlandırıldı. Naxçıvan MSSR yaradılmasının 40 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirilən gün – 1964-cü il oktyabrın 15-də Naxçıvan Teatrının yeni binası da istismara verildi. Yubileyin təntənəli yığıncağı və konserti də teatrın yeni binasında oldu.

Bu binada ilk dəfə tamaşaya qoyulan əsər “Məhsəti” pyesi olmuşdur. Adından göründüyü kimi Məhsəti Gəncəvinin həyatından bəhs edən bu mənzum pyes o zamanlar artıq istedadlı gənc şairə kimi tanınan Kəmalə Ağayevanın (sonralar Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü) dramaturgiya sahəsində ilk qələm təcrübəsi idi.

Hələ köhnə binada məşqlərinə başlanmış "Məhsəti"nin yeni binadakı premyerası çox böyük uğurla keçmiş, tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdı. Tamaşanın quruluşçu rejissoru, teatra yenicə baş rejissor təyin olunan Baxşı Qələndərli (sonralar Azərbaycan SSR əməkdar incəsənət xadimi) maraqlı aktyor ansamblı ilə məzmunlu quruluş verməyə nail olmuş, teatrın baş rəssamı, muxtar respublikanın əməkdar incəsənət xadimi Məmməd Qasımov isə yeni səhnənin texniki imkanlarından məharətlə istifadə edərək baxımlı dekorlar və geyimlər vermişdi. Bəstəkar Məmməd Ələkbərovun (sonralar muxtar respublikanın əməkdar incəsənət xadimi) musiqisi tamaşanın təsir qüvvəsini xeyli artırmışdı.

Aktyorlardan Zəroş Həmzəyeva, Məmməd Quliyev, İldırım Cabbarov, Xədicə Qazıyeva, İsa Musayev, Sofya Hüseynova, Mirhəsən Mirişli, Əkbər Qardaşbəyov, Əyyub Məmmədov, Kazım Hüseynov, Əyyub və Yusif Haqverdiyevlər, Mirzə Ələkbərov, Tamara Məmmədova, Rza İsfəndiyarlı, Tofiq Mövləvinin təsirli oyunları ilə oktyabr ayının 24-dən başlayaraq 5 gün anşlaqla davam edən premyera tamaşalarında Naxçıvan Teatrının yeni binasındakı bu ilk ərməğanı böyük hərarət və alqışlarla öz tamaşaçıları tərəfindən layiqli qiymətini aldı.

Həmçinin Naxçıvan Dövlət Musiqili Dram Teatrının yeni binasında ilk tamaşa sayılan "Məhsəti" həm vətənpərvərlik motivli, həm də musiqili dram əsəri kimi bu janrın tələblərinə yüksək səviyyədə cavab vermiş oldu. Bəstəkar M.Ələkbərovun əsərin ideyasına və ana xəttinə xidmət edən musiqilərindən əlavə, gözəl və yaddaqalan mahnıları da tamaşanı daha da rövnəqləndirirdi. İkinci pərdədə, Gəncə hökmdarının sarayında müəllifin sözləri əsasında səslənən "Tərgülün mahnısı" tamaşaçıları riqqətə gətirirdi. Bu rolun ifaçısı S.Hüseynova (sonralar xalq artisti, Prezident təqaüdçüsü) mahnını rəqs edə-edə, canlı ifa edirdi.

Görkəmli müğənnimiz, xalq artisti Şövkət Ələkbərova həmin mahnını eşitdikdən sonra onu öz repertuarına daxil etmiş, lentə yazdırmış, dəfələrlə televiziya verilişlərində, konsert salonlarında və müxtəlif tədbirlərdə məxsusi şövqlə oxumuşdur. Bu mahnı Moskvada, "Melodiya" firması tərəfindən buraxılmış "Məmməd Ələkbərovun mahnıları" valına da məhz Şövkət xanımın ifasında daxil edilmişdir.

1965-ci ilin aprel ayından teatrın yaradıcı heyəti Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsəri üzərində hazırlıq işlərinə başladı. Tamaşanın quruluşçu rejissoru B.Qələndərli, quruluşçu rəssamı M.Qasımov, bəstəkarı Rəşid Məmmədov (sonralar respublikanın əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü) idi.

"Əsas rollarda F.Əlixanova, Ə.Məmmədov, M.Ələkbərov, Y.Haqverdiyev, P.Məmmədova, digər rollarda X.Qazıyeva, M.Mirişli, Y.Əliyev, Ə.Qardaşbəyov, Ə.Məmmədov, İ.Məmmədov, M.Səfərov, Ə.Haqverdiyev, M.Muradov, K.Hüseynov, T.Mövləvi, Ə.Həsənov, F.Tarverdiyev, M.Quliyev iştirak etmişlər.

Tamaşada quruluşçu rəssam M.Qasımovun avanssenaya həkk etdiyi durnabalığı (solda), qu – durna (yuxarıda) və xərçəng (sağda) rəsmləri İvan Krılovun məşhur "Qu, durnabalığı və xərçəng" təmsilinin qəhrəmanlarıdır. Səhnədə isə hadisələr həmin personajların üç bir tərəfə dartdıqları "arabada" baş verirdi" [3, s. 143].

Burada rəssam səhnədən öz sözünü deyərək müəllif ideyasının açılmasına töhfəsini vermiş olurdu. Belə ki, Zəhra bəyimin oğulları arasında gedən münaqişədə Ana dilimizin üç qardaşın Cənuba, Şimala və Qərbə meyllilikləri ucbatından aşağılanması və unudulma həddinə çatması ətrafında cərəyan edir. Zəhrabəyim isə tamaşa boyu səhnənin sağ tərəfində üzərinə xalça salınmış və mütəkkə-yastıq qoyulmuş böyük bir ağac kötüyünün üzərində oturur. Rəssamın bu yozumu isə xalqın daim öz Ana dilinə, milli soy-kökünə bağlılığına dəlalət edirdi. M.Qasımovun yüksək vətənpərvərlik hissləri aşılayan bu tapıntıları ədəbi və teatr tənqidi tərəfindən layiqincə dəyərləndirilmiş, tamaşaçıların rəğbətinə səbəb olmuşdu. Cəmi ay yarıma hazırlanan "Anamın kitabı" tamaşasının premyerası may ayının 21-də oldu.

1965-ci il Naxçıvan Teatrının tarixində və ümumiyyətlə muxtar respublikanın mədəni həyatında ən unudulmaz illərdən biri olmuşdur. Həmin il iyun ayının 14-dən 21-dək respublikamızın paytaxtında – "Bakıda Naxçıvan MSSR mədəniyyət həftəsi" keçirilmişdir. Muxtar respublikanın görkəmli şair və yazıçıları, musiqi kollektivlərilə yanaşı, Naxçıvan DMD Teatrı da repertuarında olan üç tamaşa ilə paytaxt ictimaiyyəti qarşısında hesabat vermişdir.

Teatr paytaxt tamaşaçılarına Azərbaycan Dövlət Akademik Dram Teatrının səhnəsində demək olar ki, hamısı yerli müəlliflərin əsərlərindən ibarət və vətənpərvərlik motivli bir repertuar – Hüseyn Razinin "Odlu diyar", Kəmalə Ağayevanın "Məhsəti" və Cəmşid Əmirovun eyniadlı romanı əsasında rejissor İbrahim Həmzəyevin səhnələşdirdiyi "Sahil əməliyyatı" tamaşalarını təqdim etmişdi. O dövrün mətbuatından məlum olur ki, bu tamaşalardan "Məhsəti" daha böyük müvəffəqiyyət qazanmış, ədəbi və teatr tənqidi tərəfindən yüksək qiymətləndirilmişdir.

Həmin vaxt mətbuatda teatrın baş rejissoru Baxşı Qələndərlini Naxçıvan Teatrı üçün tapıntı adlandıran görkəmli alim və ictimai xadim, sənətşünaslıq doktoru, professor Cəfər Cəfərov yazmışdır: "...Təəccüblü deyilmidir ki, Naxçıvan Teatrının indiki gəlişi Bakıya ümumiyyətlə ilk gəlişidir? Burada haşiyə çıxaraq deməliyik ki, qoy bu gəliş ənənəyə çevrilsin...

Bakıya teatr yalnız o tamaşalarını gətirmişdir ki, Naxçıvanda müstəqil olaraq yaranmışdır. Bununla teatr öz qüvvəsinə əminliyini, diri və fəal bir orqanizm olduğunu nümayiş etdirmişdir. Bu tamaşalarda biz Naxçıvanın özünü görməklə bərabər, Azərbaycan teatr mədəniyyətinə xas olan ümumi cəhətləri də aydın hiss edirik... Bakıda verilən "Odlu diyar", "Məhsəti" və "Sahil əməliyyatı" tamaşaları göstərdi ki, teatr əsasən doğru yoldadır, xüsusən "Məhsəti" tamaşası bizi buna inandırır... Teatrın tamaşalarını müzakirələrdə "Məhsəti"ni Akademik Teatrın səhnəsində də göstərmək (tamaşaya qoymaq – Ə.Q.) arzusu bildirildi və olsun ki, bu arzu olaraq qalmayacaqdır" [1, s. 312].

Görkəmli rejissor Əliheydər Ələkbərov 1965-ci il 17 iyun tarixli "Bakı" qəzetində dərc olunmuş "Odlu diyar" adlı resenziyasında bu tamaşada xalqın qəhrəmanlığının, yadelli işğalçılara qarşı mübarizəsinin ön plana çəkilməsini xüsusi qiymətləndirib. Müəllif yazır: "Naxçıvan Teatrının Azərbaycan Dövlət Akademik (Dram – Ə.Q.) Teatrında göstərdiyi "Odlu diyar" tamaşası bizi çox sevindirdi. Bu sevinc hissi hər şeydən əvvəl, tamaşadakı qüvvətli aktyor oyunu ilə bağlıdır. Əlbəttə, quruluşçu rejissor, Azərbaycan SSR əməkdar artisti İ.Həmzəyevin bacarıqlı yaradıcılıq işini də buraya əlavə etmək lazımdır.

...Rejissor xalqın qəhrəmanlığını, yadelli işğalçılara qarşı mübarizəsini ön plana çəkməklə tamaşanın siyasi istiqamətini düzgün təyin etmişdir. Mizanlar aydın, hərəkətlər dəqiq, vəziyyətlər təbiidir. Rəssam Məmməd Qasımovun tamaşaya verdiyi bədii tərtibat da qiymətlidir. Tamaşanın ən qiymətli cəhətlərindən biri aktyor ifasıdır. "Odlu diyar" tamaşası bir daha göstərir ki, Naxçıvan Teatrı qüvvətli, istedadlı aktyor kollektivinə malikdir" [5].

İyun ayının 21-də, axşam Azərbaycan Dövlət Filarmoniyasının yay zalında respublikanın və Naxçıvanın rəhbər işçilərinin də iştirakı ilə "Mədəniyyət həftəsi"nin təntənəli bağlanış mərasimi keçirilmişdir. Buradaca "Mədəniyyət həftəsi" iştirakçılarından bir qrupunun Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən fəxri adlara və Fəxri Fərmana layiq görüldüyü elan edilmişdir.

Təltif olunanlar sırasında C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının böyük bir heyəti də olmuşdur. Belə ki, "Odlu diyar" və "Sahil əməliyyatı" tamaşalarına quruluş vermiş teatrın rejissoru və aktyoru İbrahim Həmzəyev Azərbaycan SSR xalq artisti, aktyor Məmməd Quliyev isə respublikanın əməkdar artist fəxri adlarına layiq görülmüşlər.

Şairə-dramaturq Kəmalə Ağayeva, teatrın baş rejissoru Baxşı Qələndərli, aktyorlardan Rza İsfəndiyarlı, Firuzə Əlixanova, Mirhəsən Mirişli, Əyyub Məmmədov, Zəroş Həmzəyeva və Kazım Hüseynov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, baş rəssam M.Qasımov isə Bakı Şəhər Sovetinin Fəxri fərmanı ilə təltif olunmuşlar.

1965-ci ildə Naxçıvan Teatrının Bakıya etdiyi bu ilk səfər, paytaxt tamaşaçıları qarşısında uğurlu çıxışlar, yüksək mükafatlar və tənqidi dəyərləndirmələr yaradıcı kollektivi yeni-yeni axtarışlara və nailiyyətlərə ruhlandırdı.

**1960-cı illərin sonu və 1970-ci illərdəki tamaşalar.** 1967-ci ildə Naxçıvan DMD Teatrında vətənpərvərlik motivli üç yeni səhnə əsəri hazırlandı: Cahangir Məmmədovun "Dan ulduzu", Boris Lavrenyovun "Hücum" və Səməd Vurğunun "Vaqif" tamaşaları.

Məşhur mexanizator-pambıqçı, faciəli ölümündən sonra Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş Sevil Qazıyevanın həyatından bəhs edən pyes gəncləri vətənpərvərlik ruhuna çağırması ilə yadda qalır. H.Razinin "Şərq qapısı" qəzetində dərc olunmuş resenziyasından məlum olur ki, quruluşçu rejissor əsəri "qəhrəmanlıq romantikası ruhunda tamaşaya qoymaq üçün gözəl mizanlar, lirik cizgilər, mərdliyin təcəssümünü göstərən rəmzlər və bədii ümumiləşdirmələr tapmış, kollektivlə çox səmərəli işləmişdir" [8].

Premyerası yanvarın 14-də olmuş "Dan ulduzu" tamaşasının quruluşçu rejissoru B.Qələndərli, quruluşçu rəssamı Məmmədəli İsmayılov, bəstəkarı R.Məmmədov idi. Sevil Qazıyeva obrazını Tamara Məmmədova canlandırırdı. Digər rollarda Z.Həmzəyeva, S.Qurbanova, İ.Musayev, Ə.Məmmədov, Ə.Haqverdiyev, T.Qasımov, S.Hüseynova, K.Hüseynov, P.Məmmədova, F.Tarverdiyev, Ə.Həsənov iştirak etmişlər.

1967-ci ildə sovetlər ölkəsinin bütün teatrları kimi Naxçıvan Dövlət Musiqili Dram Teatrı da 1917-ci il Oktyabr inqilabının yarıməsrlik yubileyinə öz töhfəsini verməli idi. Bu töhfə həmin ilin payızında hazırlanan "Hücum" tamaşası oldu. Tamaşa görkəmli sovet dramaturqu Boris Lavrenyovun "Tarmar" pyesi əsasında hazırlanmışdı. Əsərdə inqilabın qələbəsi uğrunda mübarizə aparan dənizçilərin bir neçə günlük həyatı təsvir olunmuşdu. Tamaşa haqqında "Şərq qapısı" qəzetində dərc olunmuş rejissor Vəli Babayevin resenziyasında oxuyuruq: "Hücum" pyesi ölkəmizin müxtəlif teatrlarında dəfələrlə tamaşaya qoyulmuş və uzun illər repertuarda qalmışdır. Bu əsər haqqında görkəmli ədəbiyyatşünasların və incəsənət xadimlərinin fikirləri vardır. Buna görə də Naxçıvan Teatrının kollektivi "Hücum"u tamaşaya qoymaqla cəsarətli addım atmış və tamaşaçıların rəğbətini qazanan yaradıcılıq işi görmüşdü. Tamaşanın quruluşçu rejissoru, əməkdar incəsənət xadimi Baxşı Qələndərli yaradıcı kollektivlə çox səmərəli işləmiş, yubileyəlayiq bir tamaşa yaratmışdır" [9].

"Hücum" da bu prinsiplər əsasında Naxçıvan Dövlət Musiqili Dram Teatrında hazırlanan tamaşalardan biri olmuşdu. Əsərdə tarixi "Avrora" gəmisində inqilab ərəfəsindəki son bir neçə gündə baş verən hadisələr ümumiləşdirilmiş bir şəkildə qələmə alınmışdı. Pyesdə şərti olaraq "Avrora" gəmisi "Zarya" adlandırılmışdı. "Zarya"da baş verən təlatüm, çaxnaşma, ikitirəlik, xəyanət, həyəcan və gərginlik, eyni zamanda onun kapitanı Bersenyevin evində, onun ailəsində də hiss olunmaqdadır. Bersenyev vətəninə, xalqına namusla xidmət edən, öz peşəsinin vurğunu olan, vəzifəsinə böyük məsuliyyətlə yanaşan, bütün gəmi heyətinin və hər bir matrosun qayğısına qalan, ailəcanlı bir rus zabitidi. Xalq artisti İ.Həmzeyev obrazın tamaşaçıya asanlıqla çatdırılmasında yüksək ustalıq nümayiş etdirmişdi.

Kapitan Bersenyev pyesdə əsas və aparıcı simalardan biri olsa da əsərin baş qəhrəmanı Artyom Qodundur. O, hərbi kreyserdəki inqilabi ruhlu, mübariz dənizçilərə geniş təbliğat apararaq onları inqilabın qələbəsinə inandırır, tərəddüd və şübhə içində olanları isə tezliklə səfərbər etməyə nail olur. O eyni zamanda Bersenyevin böyük qızı Tatyanaya isə məxsusi hörmət və ülvi duyğular bəsləyir. Qodun rolunun ifaçısı, o zaman respublikanın əməkdar artisti olan (sonralar xalq artisti) M.Quliyev böyük məharətlə obrazın öhdəsindən gələrək, onu tamaşaçılara sevdirə bilmişdi.

Digər rollarda S.Hüseynova, Z.Əliyeva, E.Qasımov, Ə.Qardaşbəyov, X.Qazıyeva, M.Mirişli M.Ələkbərov, K.Hüseynov, İ.Musayev, Ə.Məmmədov, R.İsfəndiyarlı, Ə.Haqverdiyev, Q.Ələkbərov, P.Məmmədova və digərləri iştirak edirdilər.

Bu monumental tamaşanın quruluşçu rəssamı Məmməd Qasımovun işi tamaşaçılar tərəfindən böyük razılıqla qarşılanmış, teatr tənqidi və mətbuat tərəfindən çox yüksək qiymətləndirilmişdi. Baş

rəssamın maraqlı dekorasiya maketi əsasında qurulmuş səhnə sözün əsl mənasında möhtəşəm bir gəmini andırırdı. Səhnə dairəsində qurulan gəmi topu dairə ilə bərabər hərəkət etdikcə tamaşaçı heyrət və marağını gizlədə bilmirdi. Səhnədə kreyserə məxsus avadanlıq, detallar, əşyalar və qurğular olduğu kimi təsvir edilmişdi. Baş verən hadisələr əsasən iki məkanda – gəmidə və kapitanın evində cərəyan edirdi. Tamaşaçı bu hadisələri səhnənin hündürlüyü boyda və avanssenanın yarıdan çox hissəsini tutan xilasedici dairədən izləyirdi. Üzərində rusca "Zarya" yazılan və ağ-qırmızı rəngdə olan bu dairə əsərin əsas ideyasının açılmasına xidmət edirdi. Rəssam bu dairə vasitəsilə tamaşaçıya çatdırırdı ki, gec-tez gəmini də, Bersenyevin ailəsini də xilasolma, nicat gözləyir. Hətta kapitanın mənzilində, mərkəzi divarda, böyük bir çərçivədə dünyaşöhrətli rəssam Ayvazovskinin məşhur "9-cu val" əsəri də asılmışdı. Quruluşçu rəssam bu əsər vasitəsilə də baş verən hadisələri təlatümlü bir fırtınaya bənzədərək əvvəl-axır bu dəhşətin sona çatacağını vurğulayırdı. Onun geyim və qrim eskizləri əsasında aktyorların xarici görkəmləri öz dövrünə tam uyğun olaraq onların xarakterlərilə də həmahəng idi. Xüsusən zabit və matros formalarında hər bir detal öz yerində idi. Tamaşada işıq effektləri də böyük ustalıqla işlənmişdi. Orkestr xəndəyinin səhnəyə bitişik divarında dənizin ləpələnməsi çox gözəl və təbii əks olunurdu, sanki gəminin gövdəsində dənizin ayna dalğaları bərq vururdu. Budur, kater səsi eşidilir. Matroslar səhnənin lap önünə gələrək göyərtənin məhəccərindən aşağı – dənizə, yəni orkestr xəndəyinə baxırlar. Motor səsi kəsilir. Orkestr xəndəyindən – katerdən dəmir pilləkənlərlə bir neçə yüksək rütbəli zabit kreyserə qalxır. Bu maraqlı səhnə çox təbii alınır və tamaşaçını vəcdə gətirirdi. Sanki hadisələr səhnədə deyil, kino ekranında baş verirdi.

"Hücum" tamaşasının premyerası 1967-ci il noyabr ayının 6-da olmuş və ilk tamaşada muxtar respublikanın bütün rəhbərliyi iştirak etmişdi. Bəstəkar Məmməd Məmmədovun (sonralar Naxçıvan MSSR əməkdar müəllimi) gözəl musiqisi tamaşanın ruhuna uyğun idi.

Bir neçə aydan sonra Leninqrad (Sankt-Peterburq) Akademik Dram Teatrından gəlmiş nümayəndələr Naxçıvan Teatrının fəaliyyətilə yaxından tanış olmuş və "Hücum" tamaşasına baxmışlar. Tamaşanın Azərbaycanın bir əyalət teatrında belə bir quruluşda və gözəl, son dərəcə professional aktyor oyunu ilə hazırlanması onlarda heyrət və təəccüb doğurmuşdu. Hətta Neva sahillərindən gəlmiş rəssam Naxçıvan səhnəsində öz həmkarının işindən, onun əsərin ideyasına xidmət edən orijinal tapıntılarından riqqətə gəldiyini gizlədə bilməmiş, böyük sənət ənənələrinə malik olan, Rusiyanın qədim, məşhur teatrında B.Lavrenyovun bu möhtəşəm tamaşası üçün sərf olunmuş rəssam işinin Naxçıvanda, Məmməd Qasımovun tərtibatı qarşısında kölgədə qaldığını bildirmişdi. Qonaqlar Naxçıvan Dövlət Musiqili Dram Teatrı haqqında, xüsusən də "Hücum" tamaşası barədə rəy və təəssüratlarını muxtar respublikanın mədəniyyət nazirliyi və digər yuxarı təşkilatlarında keçirdikləri görüşlər zamanı da bölüşmüşlər.

Məhz "Hücum" tamaşasının yaratdığı rezonansdan sonra Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti 21 noyabr 1967-ci il tarixli Fərmanı ilə Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rəssamı Məmməd Ələkbər oğlu Qasımovu teatr və rəngkarlıq sahəsindəki səmərəli xidmətlərinə görə əməkdar incəsənət xadimi fəxri adına layiq gördü. M.Qasımov bu fəxri ada təsis olunduğu vaxtdan bəri layiq görülmüş ikinci şəxs olmuşdur. Həmin fəxri ad ilk dəfə yenə də Naxçıvan Teatrının sabiq baş rəssamı, 1932-1948-ci illərdə burada fəaliyyət göstərmiş Şamil Qazıyevə verilmişdi.

1968-ci ildə teatr S.Vurğunun "Vaqif" mənzum dramına müraciət edir. "Vaqif" sovet dövründə Azərbaycan səhnəsinin ən yüksək vətənpərvərlik ruhu aşılayan tamaşalarından biri kimi səciyyələndirilirdi. Sovet ideologiyasının diktəsilə müəllif tərəfindən o dövrdəki hadisələrin, xüsusən də Qarabağ xanı İbrahimxəlil xan və Ağaməhəmməd şah Qacar obrazlarının təhriflə təqdim olunmasına baxmayaraq Molla Pənah Vaqifin ilk dəfə olaraq bir obraz kimi səhnəyə gətirilməsi təqdirəlayiq hal idi. Burada Eldarın və onun dəstəsinin vətənsevərliyi, azadlıq uğrunda döyüşkənliyi, Vaqiflə Molla Vəli Vidadinin möhkəm dostluğu tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır, xüsusən gənclərdə Vətənə, elə məhəbbət hisslərini gücləndirirdi.

Tamaşanın quruluşçu rejissoru B.Qələndərli quruluşlarındakı uğurlu aktyor seçimi ənənəsini "Vaqif" tamaşasında da davam etdirərək monumental və uğurlu bir səhnə əsərinə nail olmuşdu. Quruluşçu rəssam M.Qasımovun dekor və geyimləri zövq oxşayır, Şuşa qalasının səhnənin sağında və solunda rəmzi olaraq bir qədər səhnənin içərisinə doğru əyilmiş formada verilməsi sanki bir kəlbətin başlıqları kimi Vaqifi məngənə kimi sıxan zəmanəni xarakterizə edirdi. Tamaşanın musiqi tərtibçisi R.Məmmədovun da işi uğurlu idi.

Rejissor assistenti K.Hüseynov həm də Qacar rolunu ifa edirdi. Muxtar respublikanın əməkdar artisti Kazım Hüseynovun Qacar obrazı tamamilə özünəməxsusluğu ilə seçilirdi. Aktyorun bu təbii və təkrarsız ifası böyük rəğbətlə qarşılanırdı. Əslən Bakıdan olan və ömrünün 40 ilini Naxçıvan Teatrına həsr edən, tək elə Qacar rolunun ifasına görə xalq artisti adına layiq olan bu istedadlı aktyor təəssüf ki, ahıl yaşlarında belə öz qiymətini ala bilmədi.

Xalq artisti İsa Musayev Azərbaycan səhnəsində sayılıb-seçilən bir Vaqif obrazı yaratmağa müvəffəq olmuşdu. Onun Vaqifində demək olar ki, istedadlı şair, müdrik dövlət xadimi, mehriban ata, qayğıkeş ər, sadiq dost kimi xüsusiyyətlər cəm olmaqla, mükəmməl bir insan obrazı yaranmışdı.

İlk tamaşası noyabr ayının 2-də olan "Vaqif"də digər rolları Z.Həmzəyeva, N.Həmzəyev, T.Məmmədova, R.İsfəndiyarlı, M.Quliyev, M.Mirişli, Ə.Məmmədov, X.Qazıyeva Ə.Qardaşbəyov, Ə.Haqverdiyev, Y.Haqverdiyev, T.Mövləvi, R.Cəfərxanova və F.Əlixanova ifa edirdilər.

Naxçıvan Dövlət Musiqili Dram Teatrı 1969-cu ilin iyul-avqust ayları ərzində Gürcüstanda – Tbilisidə və Borçalı mahalında qastrolda olmuşdur. "Sovet Gürcüstanı" qəzetinin həmin günlərdəki nömrələrində dərc olunan yazılardan məlum olur ki, Naxçıvan Teatrının çıxışları yerli tamaşaçılar tərəfindən maraqla qarşılanıb [8].

1970-ci il mart ayının 30-da Cəfər Cabbarlının "Od gəlini" əsərinin ilk tamaşası oldu. Quruluşçu rejissor Vəli Babayev (sonralar respublikanın əməkdar artisti), quruluşçu rəssam Sənan Qurbanov, bəstəkar Rəşid Məmmədov idi. Tamaşada N.Həmzəyev, V.Əsədov, R.Cəfərxanova, İ.Musayev, A.Şahsuvarov, İ.Məmmədov-Bənəniyarlı, V.Babayev, M.Mirişli iştirak edirdilər.

"..."Od gəlini" qəhrəmanlıq dramının yeni quruluşunda rejissor Vəli Babayev mənəvi azadlıq, əqidə mübarizəsində mətinlik və əyilməzlik, məhəbbətdə qüdsiyyətin qorunması ideyalarını ön plana çəkmişdi. Bununla da tamaşanın monumentallığı artmış, realist, bəşəri duyğular romantik vüsətlə canlanmışdı. Aktyor ifaları da rejissorun müəyyənləşdirdiyi janr-üslub prinsiplərinə əsaslanırdı" [4, s. 236].

Bir müddət sonra – 1971-ci ildə Naxçıvan Teatrı Hüseyn Razinin yeni bir tarixi pyesinə və sayca 3-cü dram əsərinə müraciət etdi. Bu, ötən əsrin 20-ci illərindəki hadisələrdən bəhs edən və may ayının 10-da premyerası olan "Arxalı dağlar" tamaşası oldu. Üç pərdə, altı şəkildən ibarət olan bu pyesi müəllif nəsrlə, onun proloq və epiloqunu isə nəzmlə yazmışdı. Dramaturqun bu üsulu keçmişlə bu günü poetik şəkildə fərqləndirmək amalına xidmət edirdi.

Tamaşanın quruluşçu rejissoru B.Qələndərli, quruluşçu rəssamı M.Qasımov, bəstəkarı M.Məmmədov idi.

"Şərq qapısı" qəzetinin 1971-ci il 23 may tarixli nömrəsində teatrın ilk ədəbi hissə müdiri, şair-dramaturq Kəmalə Ağayevanın "Arxalı dağlar" başlıqlı resenziyasında qeyd olunur ki: "...Rəssam tərəfindən hadisələrin gedişi üçün dağların fon seçilməsi tamaşanın ideya xəttinin açılmasına kömək etmişdir. Ümumiyyətlə, zəngin səhnə boyalarından, mənalı mizanlardan istifadə edən quruluşçu rejissor tamaşanın müvəffəqiyyətinə nail olmuşdur...

Raykom katibi Eldar Aslanov rolunda İbrahim Həmzəyev çıxış edir. Aktyor ilk növbədə müəyyən daxili keyfiyyətlərə malik, həyat təcrübəsi keçmiş, mürəkkəb və kəskin vəziyyətlərdə daxili mətinliyini qoruyan bir insan obrazı yaradır. Hər oyunu ilə tamaşaçıları sevindirən aktyor bu dəfə də məhəbbətlə qarşılanmağa nail olmuşdur. O, ifa etdiyi obrazı yaxşı yaradır. Xüsusilə, Qeysərlinin ifşa səhnəsində və Xanbala ilə rəftarında Aslanov unudulmazdır.

İsa Musayev əsl İbiş bəy yaratmağa müvəffəq olur. O, öz çürük məsləyilə öyünəndə də, insanları heç bir ürək ağrısı duymadan arxadan vurduranda da, doğma balası ilə üzləşəndə də, tərk-silah olub həbsə gedəndə də, oğlunun məzarı önündə hönkürəndə də sanki əsl İbiş bəydir.

Ayı Səftər pyesin ən maraqlı obrazlarındandır. Bu obrazın yaradıcısı teatrın kollektivinə yenicə daxil olmuş gənc aktyor Nazir Əliyevdir... Obrazın daxili aləmini, iş və hərəkətlərini Nazir Əliyev tamaşaçılara zəngin boyalarla təqdim edir" [10].

SSRİ yaranmasının 50 illik yubileyi ərəfəsində respublikanın digər teatrları kimi Naxçıvan DMD Teatrı da yaradıcılıq hesabatı vermək üçün Azərbaycan Televiziyası və Radiosunun dəvətilə 1972-ci ilin noyabr ayında bir qrup yaradıcı heyətlə Bakıda olmuş, görkəmli sənətkarlardan müsahibələr alınmış, bir neçəsi haqqında televiziyada və radioda verilişlər hazırlanmış, ayrı-ayrı tamaşalardan parçalar göstərilmiş və səsləndirilmişdi. Həmin yaradıcı qrupa teatrın baş rejissoru Nəsir Sadıqzadə, baş rəssam Məmməd Qasımov, musiqi hissə rəhbəri Namiq Teymurov, aktyorlardan Z.Həmzəyeva, F.Əlixanova, M.Quliyev, Ə.Qardaşbəyov, S.Hüseynova, K.Hüseynov, Z.Əliyeva və V.Əsədov daxil edilmişdilər.

1972-ci il martın 22-də premyerası olmuş "Tribunal" tamaşasının müəllifi belorus dramaturqu, xalq yazıçısı Andrey Makayonokdur. Pyesi dilimizə Novruz Gəncəli çevirmişdi. "Tribunal" tragikomediyası Böyük Vətən Müharibəsinin ilk illərində belorus xalqının alman faşistlərinə qarşı apardığı aşkar-gizli mübarizədən bəhs edir. Tamaşanın quruluşçu rejissoru V.Babayev, rəssamı M.Qasımov, bəstəkarı R.Məmmədov idi.

"Əsərin qəhrəmanı isə on iki övlad atası Tereşkodur. O, kəndlərinin yaxınlığında gizli fəaliyyət göstərən partizan təşkilatının xüsusi tapşırığı ilə faşistlərin təklifini qəbul edərək kəndxuda təyin olunmağa razılıq verir. Kənd əhalisi və bütün ailə üzvləri – arvadı Polina, (F.Əlixanova) gəlini Nadya (S.Hüseynova), qızları Qalya (Z.Əliyeva) və Zina (M.Əliyeva), oğlu Volodko (R.Hüseynov) Tereşkodan üz döndərib onu satqınlıqda ittiham edirlər. Tereşkonu zorla kisəyə basıb ailə tribunalının qərarı ilə hava qaralan kimi onu buzlu çayda batırmaq qərarına gəlirlər. Axırının çatdığını hiss edən və tapşırığın iflasa uğradığını görən Tereşko gizli sirri arvadına açaraq onu partizanların yanına göndərir. Hava qaralanda özünü evə çatdıran Polina sevinc içində Tereşkonu kisədən azad etmək əmri verir. Qızlar Tereşkonun əl-ayağını açdıqları zaman dəhşətli partlayış eşidilir. Heç kim bir şey anlamasa da bir az əvvəl oğlunun təklikdə ittihamlarına qulaq asan Tereşko, onun üstünə qumbaraları bağlayaraq alman komendantlığına girdiyini anlayır və "Volodko!" deyə fəryad edir. Tamaşa belə bir faciəvi sonluqla bitirdi.

Bu tamaşada əsərin qəhrəmanı Tereşko obrazını ustad aktyor Ə.Qardaşbəyov xüsusi bir məharətlə yaradırdı. Əsər tragikomediya janrında yazılmışdır və iki hissədən ibarətdir. Birinci hissə alman komendantının (İ.Həmzəyev) Sırodeyevlə (M.Quliyev) birlikdə Tereşkonun komasında qonaq olduqları səhnədir. Burada kəndxuda seçilməsinin sevinci içində arvadı və qızları ilə gah amiranə, gah da zarafatyana rəftar edən, müxtəlif komik vəziyyətlərə düşən qəhrəmanının bütün daxili hisslərini, keçirdiyi həyəcanı, harada isə bir az qorxunu və ona həqarətlə baxan ailə üzvlərinin yanında xəcalətli görkəmini Ə.Qardaşbəyov əlvan boyalarla, sarkazm və acı gülüşlə, hiyləgər baxışları, çevik hərəkətlərilə təsvir etməyə, tamaşaçıda gülüş, nifrət, şübhə və finalda isə məhəbbət oyatmağa nail olurdu" [3, s. 90].

1974-cü ildə Azərbaycan teatrının 100 illik və Naxçıvan Muxtar Respublikası yaranmasının 50 illik yubileyləri münasibətlə bütün təbəqələrdən olan fədakar adamlar, o cümlədən mədəniyyət xadimləri və qədim teatrın yaradıcı heyətindən bir qrupu Azərbaycan SSR və Naxçıvan MSSR-in fəxri adlarına, fəxri fərmanlarına layiq görülmüşlər. Belə ki, yaşlı nəslin nümayəndələrindən F.Əlixanova və M.Quliyev respublikanın xalq artisti, orta nəslə mənsub aktyorlardan S.Hüseynova, Ə.Qardaşbəyov, A.Şahsuvarov, Ə.Məmmədov və Z.Əliyeva Azərbaycan SSR əməkdar artisti, İ.Məmmədov (Bənəniyarlı) və M.Səfərov isə Naxçıvan MSSR əməkdar artisti, teatrın rejissorları –

B.Qələndərli respublikanın əməkdar incəsənət xadimi, V.Babayev isə əməkdar artisti fəxri adları ilə təltif olunmuşlar.

1975-ci ilin əvvəllərində Naxçıvan Teatrı yenidən Sosialist Əməyi Qəhrəmanı Konstantin Simonov dramaturgiyasına, onun müharibə mövzusunda olan "Dördüncü" psixoloji dramına müraciət etdi. Bu dəfə B.Qələndərli həmin əsəri "Onlar dörd nəfər idilər" adı ilə tamaşaya qoydu.

Pyesin əsas süjet xətti belədir: Ya faşizmi və müharibəni müdafiə etmək, yaxud nəyin bahasına olursa olsun, onlara qarşı barışmaz və qəti mübarizə aparmaq. Müəllif tərəfindən "O" adlandırılan naməlum şəxs baş qəhrəmandır. O, faşizmlə müharibə zamanı əsir düşmüş, sonradan isə əsirlikdəki üç dostununköməkliyilə oradan qaçmışdır. Müharibədən neçə illər keçsə də, O ləkəli vicdanla yaşamaqdadır. İndi Onun qarşısında müharibə əleyhinə xeyirxah işlər görmək vəzifəsi dayanır. Bu fəaliyyət isə ona mötəbər bir vəzifəsinin itirilməsi bahasına başa gələ bilər. Belə bir anda Onun daxili monoloqu eşidilir və əsirlikdən qaçdıqdan sonrakı həyatını əks etdirən hadisələr səhnədə canlanır. O, xilası yolunda özlərini fəda etmiş üç dostunun ittihamları altında yavaş-yavaş daxilən təmizlənir və müharibəyə qarşı mübarizəyə qəti qərar verir.

"İki hissədən ibarət olan bu dramı görkəmli teatrşünas Cabir Səfərov tərcümə etmişdi. Tamaşanın quruluşçu rəssamı M.Qasımov, musiqi tərtibçisi Ə.Məmmədov idi. Tamaşada İ.Musayev Teddi Frank, M.Quliyev Səs, R.Hüseynov Bondar, Ə.Məmmədov Vandekker, V.Babayev Qviççardi, S.Hüseynova Ketrin, Ə.Qardaşbəyov Cek Ueller, R.Cəfərxanova Qadın, İ.Bənəniyarlı İkinci pilot, Q.Ələkbərov Çarlz Hovard, İ.Abdullayev Şturman, V.Əsədov Dik, E.Şeyxov Ben rollarında çıxış etmişdilər" [3, s. 96].

O obrazını Aydın Şahsuvarov (sonralar xalq artisti) böyük məharətlə yarada bilmişdi. Məhz bu uğurlu roluna görə Respublikanın Mədəniyyət Nazirliyi aktyoru 1975-ci ilin avqust ayında Moskvaya – 10 günlük yaradıcılıq ezamiyyətinə göndərmişdi.

Alman faşizmi üzərində qələbənin 30 illiyinə həsr olunmuş "Onlar dörd nəfər idilər" tamaşasının premyerası 1975-ci il martın 19-da olmuşdu. Bu tamaşa haqqında "Şərq qapısı" qəzetindəki resenziyasında filologiya elmləri namizədi (sonralar elmlər doktoru, professor) Yavuz Axundov belə yazmışdı: "K.Simonovun "Dördüncü" əsərinin quruluşunu B.Qələndərli verərkən tamaşanın ideyasının daha aydın olması üçün dolğun mizanlar, mənalı səhnələr yaratmışdır. Onun (rejissorun – Ə.Q.) ustalığı ondadır ki, belə mürəkkəb hadisələri bir şəxsin taleyilə bağlı şəkildə, yığcam süjet daxilində həll edə bilmişdir" [11].

1976-cı ildə Nodar Dumbadzenin "Darıxma, ana!" adlı üçpərdəli qəhrəmanlıq komediyası tamaşaya qoyulur. Mövzusu müasir həyatdan götürülmüş və vətənpərvərlik ideyalarını tərənnüm edən tamaşanın quruluşçu rejissoru B.Qələndərli, rejissoru V.Əsədov, quruluşçu rəssamı M.Qasımov, musiqi tərtibçisi N.Fətullayev idi.

"Əsərin qəhrəmanı Aftandil obrazını aktyor Qurban Ələkbərov dolğun boyalarla ifa edərək onun xarakterik xüsusiyyətlərini tamaşaçıya çatdıra bilirdi. Əsas rollarda İ.Musayev, İ.Həmzəyev, F.Əlixanova, Z.Əliyeva, R.Cəfərxanova iştirak edirdilər. Bundan başqa tamaşada aktyorlardan Ə.Qardaşbəyovun İ.Abdullayevin, T.Mövləvinin, S.Hüseynovanın, A.Şahsuvarovun, N.Xudiyevanın oyunları da yaxşı təsir bağışlayır və əsərin emosional gücünün artmasına xidmət edirdi. Fevral ayının 24-də premyerası olmuş "Darıxma, ana!" tamaşası böyük rəğbətlə qarşılanmışdı" [3, s. 99].

Teatr 1976-cı ildə "Məhsəti" (30 aprel) və "Vaqif" (31 may) tamaşalarını yeni quruluşda bərpa etmiş, hər iki tamaşanın rejissoru və rəssamı dəyişməsə də, budəfəki "Vaqif" tamaşasının bəstəkarı Əfrasiyab Bədəlbəyli olmuşdu.

1977-ci ilin yeni mövsümündə teatrda Vsevolod İvanovun məşhur "Zirehli qatar 14-69" əsəri hazırlanır. Burada vurğulamaq istərdim ki, Tamaşanın (pyesin) dilimizdə məqsədəmüvafiq tərcüməsi "14-69 zirehli qatarı" olmalı idi.

Əsərin əsas qayəsi yüksək inqilabi pafos, xəlqilik, xalq hərəkatının kütləviliyi və əzəmətidir. Hadisələr Rusiyada vətəndaş müharibəsi dövründə baş verirdi. Quruluşçu rejissor, təcrübəli sənət-

kar B.Qələndərli ilk növbədə düzgün və uğurlu rol bölgüsü aparmışdı, həmçinin maraqlı və məzmunlu mizanlarla, yeni tapıntılarla daha baxımlı monumental bir tamaşa qura bilmişdi.

"Əsərdən irəli gələrək burada iki cəbhənin nümayəndələri – əvvəlki səhnələrdə, sadə rus kəndlisi kimi çıxış edən, sonradan xalq hərəkatının liderinə çevrilən Verşinin və zirehli qatarın komandiri, ağqvardiyaçı kapitan Nezelasov tamaşanın əsas obrazlarıdır. Əsərdəki inqilab komitəsinin sədri Peklevanov da əsas obrazlardandır. O, təcrübəli, səriştəli, ağıllı və ehtiyatlı bir inqilab fədaisidir. Məhz onun tədbirli planı ilə Verşininin dəstəsi düşməni tamamilə məhv edərək 14-69 №-li zirehli qatarı ələ keçirir.

Verşinin rolunda Ə.Qardaşbəyov, Nezelasov rolunda V.Əsədov, Peklevanov rolunda İ.Həmzəyev çıxış etmişlər. Onlar öz qəhrəmanlarının xarakterik cizgilərini dərindən duyaraq gözəl oyun nümayiş etdirirdilər. Digər rolları Q.Ələkbərov, S.Mirzəyev, A.Şahsuvarov, F.Əlixanova, İ.Bənəniyarlı, T. Mövləvi ifa edirdilər.

"Zirehli qatar 14-69" tamaşasının quruluşçu rəssamı M.Qasımov öz yaradıcılıq ənənəsinə sadiq qalaraq burada da mənalı və baxımlı dekorlardan, dövrəuyğun geyimlərdən dəqiqliklə istifadə etmişdi. Səhnədə ən çox tamaşaçı marağına səbəb olan zirehli qatarın işıq verə-verə rels üzərində səsli hərəkət etməsi idi. Rəssam yenə də səhnə dairəsindən yerində və məqsədəuyğun şəkildə istifadə etməklə, dekorativ relsləri dairənin tam kənarında yerləşdirmiş və nəhəng zirehli parovoz maketi dairənin hərlənməsilə hərəkətə gələrək sanki əsl qatar təsiri bağışlayırdı və çox təbii görünürdü.

Bəstəkar R.Məmmədov tamaşa üçün inqilabi ruhlu orijinal musiqi parçaları yazmışdı. Böyük uğurla qarşılanan "Zirehli qatar 14-69" tamaşasının premyerası 1977-ci il noyabr ayının 2-də olmuşdu. Tamaşa ədəbi tənqid və teatr ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilərək Naxçıvan Teatrının növbəti yaradıcılıq nailiyyəti hesab edilmişdi" [3, s. 100-102].

1979-cu ildə Naxçıvan Teatrının veteranlarından biri, qocaman rejissor və aktyor, respublikanın xalq artisti Mir İbrahim Həmzəyevin anadan olmasının 70, səhnə fəaliyyətinin 50 illiyi tamam olmuşdur. Bu münasibətilə Naxçıvanda və Bakıda yubiley tədbirləri və təntənəli gecələr keçirilmişdir. Azərbaycan teatrının inkişafındakı xidmətlərinə görə və 70 illik yubileyilə əlaqədar olaraq İ.Həmzəyev həmin il SSRİ Ali Soveti Rəyasət Heyətinin müvafiq fərmanına əsasən "Qırmızı Əmək Bayrağı" ordenilə təltif edilmişdir.

**1980-ci illərdəki tamaşalar.** 1982-ci il dekabrın 27-də teatrda Şota Rokvanın sərhədçilərin həyatından və gündəlik qayğılarından bəhs edən "Yaşıl papaq" pyesinin ilk tamaşası oldu və H.Ağayev (Ağasoy) burada baş rolda – Arçil Qordadze rolunda böyük müvəffəqiyyət qazandı.

Əsas ideyası vətənpərvərlik olan bu tamaşaya görkəmli rejissor Ağakişi Kazımov (sonralar xalq artisti) quruluş vermişdi. Quruluşçu rəssam M.Qasımov, musiqi tərtibçisi Yusif Əsgərov idi.

1983-cü il may ayının 27-də isə Həmid Arzulunun "Əlincə qalası" pyesinin ilk tamaşası olur. Adından da göründüyü kimi tamaşada Naxçıvanın qəhrəmanlıq simvolu olan Əlincə qalasının yadellilərə qarşı mərdliklə müdafiə olunması ətrafında baş verən hadisələr cərəyan edir. Vətənə məhəbbət və mübarizlik ideyalarının əks olunduğu bu tamaşanın quruluşçu rejissoru V.Əsədov, quruluşçu rəssamı M.Qasımov idi.

C.Vəzirov və İ.Həbibovun (indi Həbibbəyli) "Şərq qapısı"nda dərc olunmuş resenziyalarında vurğuladıqları kimi: "Müasirlik baxımından çox aktual səslənən, tamaşaçını vətəni tükənməz məhəbbətlə sevməyə çağıran, Əlincə qalasının qəhrəmanlıq xatirəsini bədii sözün qüdrətilə əbədiləşdirən və o qəhrəmanlığa layiq olan "Əlincə qalası" tamaşası qədim Naxçıvan Teatrının uğurlu və yaddaqalan işlərindən biri sayılmalıdır" [4, s. 292].

Burada Teymurləng obrazını A.Şahsuvarov böyük ustalıqla canlandıra bilmişdi. Digər rollarda K.Quliyev, İ.Səfiyev, Ə.Qardaşbəyov, S.Mirzəyeva, Y.Ramazanova, İ.Məmmədov-Bənəniyarlı, P.Məmmədova, N.Xudiyeva, R.Hüseynov, H.Ağayev-Ağasoy, V.Əsədov, İ.Abdullayev, M.Səfərov, T.Mövləvi, Y.Allahverdiyev və Ə.Haqverdiyev iştirak etmişlər.

1984-cü il aprelin 30-da C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri yeni quruluşda təqdim olunmuşdur. Rejissor B.Qələndərli, rəssam M.Qasımov, musiqi tərtibçisi Həsənağa Qurbanov (sonralar Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi) idi. Əsas rollarda S.Mirzəyeva, Ə.Əliyev, R.Hüseynov, Y.Allahverdiyev, H.Ağayev (Ağasoy), M.Məhərrəmova iştirak etmişlər.

1984-cü il də məhsuldar bir dövr keçirən Naxçıvan Teatrı üçün uğurlu il olmuşdur. Belə ki, Naxçıvan Muxtar Respublikası yaradılmasının 60 illiyinin təntənə ilə qeyd olunduğu payız günlərində C.Məmmədquluzadə adına Naxçıvan DMD Teatrının da bir qrup sənətkarına Azərbaycan SSR və Naxçıvan MSSR-in fəxri adları, həmçinin fəxri fərmanları verilmişdir. Onlardan A.Şahsuvarov Azərbaycan SSR xalq artisti, R.Cəfərxanova və İ.Bənəniyarlı respublikanın əməkdar artisti, T.Mövləvi və H.Ağayev (Ağasoy) isə muxtar respublikanın əməkdar artisti fəxri adlarına layiq görülmüşlər.

1985-ci ilin sonunda Kəmalə Ağayevanın "Apardı sellər Saranı" faciəsi tamaşaya qoyuldu. Məzmunu məşhur xalq əfsanəsindən götürülən və eyni zamanda yüksək vətənsevərlik, kökə bağlılıq ruhunda qələmə alınan tamaşanın quruluşçu rejissoru Əliqismət Lalayev (indi respublikanın əməkdar incəsənət xadimi), quruluşçu rəssamı M.Qasımov, bəstəkarı Cavanşir Quliyev (indi respublikanın əməkdar incəsənət xadimi), rəqslərin quruluşçusu Zəminə Əsədova olmuşdur. Baş rollarda Naibə Allahverdiyeva (indi respublikanın xalq artisti), əsas rollarda O.Quliyev, Ə.Qardaşbəyov, S.Hüseynova, R.Cəfərxanova, T.Məmmədova, C.Məmmədova, Ə.Əliyev, A.Şahsuvarov iştirak etmişlər.

Premyerası dekabr ayının 13-də olan tamaşanın qədim xalq melodiyalarını andıran rəngarəng musiqiləri el havalarına bənzər mahnıları hadisələrin təsir qüvvəsini artırmaqla, tamaşaçıya xoş ovqat bəxş edir, finalda isə sanki onu da hadisələrin kədərli sonluğuna doğru çəkirdi. Bu tamaşada ifa olunan mahnılar sonralar müğənnilər Brilyant Dadaşovanın və Akif İslamzadənin ifalarında efirlərdən səslənmişdir. Həmin musiqilərdən bu gün də Azərbaycan teleradio məkanında hazırlanan müxtəlif verilişlərdə istifadə olunmaqdadır.

Görkəmli teatrşünas Cabir Səfərov "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuş resenziyasında yazırdı: "Gənc və istedadlı rejissor Əliqismət Lalayev zövqlə hazırladığı "Apardı sellər Saranı" tamaşasında "sevgi mövzusuna daha geniş məna vermiş, onu vətənə məhəbbət, dinclik motivlərilə səciyyələndirməyə səy göstərmişdir. Rejissorun bu məqsədi aktyor ansamblının oyununda da aydın nəzərə çarpır...

Quruluşçu rəssam Məmməd Qasımovun və bəstəkar Cavanşir Quliyevin də yaradıcı axtarışları tamaşanın əsas ideyasına – eşqin hər cür despotizmdən yüksəkdə durması fikrinin mənalı şərhinə xidmət edir. Yeri gəlmişkən deyək ki, rəssamın bədii quruluşu məişətçilikdən uzaqdır. Səhnələrin təsviri etnoqrafik cəhətdən yaxşı düşünülmüşdür. Bəstəkarın "Apardı sellər Saranı" xalq mahnısını leytmotiv kimi istifadə etməsi və başqa musiqi parçalarının qəhrəmanların əhvali-ruhiyyəsilə həmahəng səslənməsi tamaşanın emosional təsirini artırır" [6].

1987-ci il iyun ayının 13-də C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında böyük bir təntənə oldu. Bu, Naxçıvan Teatrının gecikmiş 100 illik yubiley təntənəsi idi. Bir gün əvvəl – iyun ayının 12-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan teatr sənətinin inkişafında xidmətlərinə görə və yaranmasının 100 illiyilə əlaqədar olaraq C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının Fəxri Fərmanla, onun aktyorlarından bir qrupunun isə fəxri adlarla təltif edilməsi haqqında fərman vermişdi. Belə ki, aktyorlardan Ə.Qardaşbəyov xalq artisti, T.Mövləvi, T.Məmmədova, R.Hüseynov və K.Quluyev isə respublikanın əməkdar artisti fəxri adlarını aldılar.

Teatr əməkdaşlarından bir qrupu isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin və Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif edilmişdilər. Aktyorlardan N.Xudiyeva, Y.Ramazanova, Y.Allahverdiyev, X.Hüseynov, Ə.Əliyev muxtar respublikanın əməkdar artisti fəxri adına layiq görülmüşlər.

Lakin bir daha vurğulamaq lazımdır ki, Naxçıvan Teatrının yaranma tarixi 1886-cı il deyil, 1883-cü il mart ayının 23-dür. Teatrın dəqiq, doğru-düzgün tarixinə Naxçıvan Dövlət Musiqili Dram

Teatrı və Azərbaycan Teatr Xadimləri İttifaqı Naxçıvan Təşkilatının uydurduğu saxta fakta Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin, həmçinin Vilayət Partiya Komitəsinin biganə, laqeyd və formal münasibəti nəticəsində respublika rəhbərliyinə təqdim olunmuş yanlış tarixi məlumat əsasında Azərbaycan KP MK 1986-cı ildə "Naxçıvan Dövlət Musiqili Dram Teatrının 100 illiyi haqqında" qeyri-obyektiv bir qərar vermişdir. Bu məsələdə həmin vaxt Respublika Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının da müşahidəçi mövqeyində olmasını vurğulamaq lazımdır.

**Nəticə.** Tədqiqatın aparıldığı 25 il – 1964-1989-cu illər ərzində bir cəhət də aşkarlanmışdır ki, Naxçıvan Dövlət Musiqili Dram Teatrı öz tarixi ərzində məhz bu dövrdə daha çox vətənpərvərlik motivli tamaşalar ərsəyə gətirə bilmişdir. Eyni zamanda məhz bu illərdə hazırlana tamaşalara daha çox mərkəzdən – Bakıdan rejissorlar dəvət olunmuşlar.

Tədqiqat zamanı əldə olunan əsas nəticələrdən biri də ondan ibarətdir ki, 1964-1990-cı illər ərzində teatrda vətənpərvərlik motivli tamaşaların hazırlanmasında məhsuldarlıq aydın nəzərə çarpmaqla bu dövrdə belə əsərlərin Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində tamaşaya qoyulması say etibarı ilə rekord həddə çatmışdır.

## ƏDƏBİYYAT

1. Cəfərov C. Əsərləri: 2 clddə. I c., Bakı: Azərnəşr, 1968, 364 s.
2. Qasımov Ə. Cəlil Məmmədquluzadə və Naxçıvan teatrları. Cəlil Məmmədquluzadə: taleyi və sənəti. Bakı: Elm və təhsil, 2010, 196 s., s. 137-149.
3. Qasımov Ə. Naxçıvan Teatrında tərcümə əsərlərinin tamaşaları (1883-2013). Bakı: AfpoliqrAF, 2016, 176 s.
4. Rəhimli İ., Vəzirov C. Naxçıvan Teatrı (1883-2008). Bakı: Aspoliqraf, 2008, 352 s.
5. "Bakı" qəz., 1965, 17 iyun.
6. "Ədəbiyyat və incəsənət" qəz., 1986, 30 may.
7. "Sovet Gürcüstanı" qəz., 1969, 12 avqust.
8. "Şərq qapısı" qəz., 1967, 22 yanvar.
9. "Şərq qapısı" qəz., 1967, 19 noyabr.
10. "Şərq qapısı" qəz., 1971, 23 may.
11. "Şərq qapısı" qəz., 1975, mart.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: elekberqasimov@mail.ru***

**Alakbar Gasimov**

## STAGE PERFORMANCES OF WORKS WITH PATRIOTIC MOTIVES IN THE NAKHCHIVAN THEATER (1964-1990)

The article discusses performances based on patriotic works that were staged at the Nakhchivan State Musical and Drama Theater between 1964 and 1990. It provides comprehensive information about numerous performances, provides a comprehensive analysis of certain performances, and introduces their creative teams.

It also lists important events that happened during the Nakhchivan Theater's creative and organizational activities from 1964 to 1987. During these days, various honorary titles were bestowed upon the directors, artists, actors, and other employees of the theater, while personal scholarships and prizes, as well as honorary certificates, were presented.

It is also emphasized that patriotic performances hold significant significance in enhancing the affection for the Motherland among the new generation, particularly among young individuals, for instilling a national spirit, facilitating a comprehensive examination of historical events, and enriching their worldview.

**Keywords:** *Nakhchivan Theater, patriotism, performance, director, artist, actor, music.*

**Алекбер Гасымов**

## СЦЕНИЧЕСКОЕ ВОПЛОЩЕНИЕ ПРОИЗВЕДЕНИЙ С ПАТРИОТИЧЕСКИМИ МОТИВАМИ В НАХЧЫВАНСКОМ ТЕАТРЕ (1964-1990)

В статье упоминаются спектакли по патриотическим произведениям, поставленные в Нахчыванском Государственном Музыкально-драматическом Театре в 1964-1990 годах, дается подробная информация о многих из них, приведен подробный анализ некоторых из них, представляются их творческие коллективы.

Здесь также отмечены исторические события и знаменательные даты, произошедшие в творческой жизни и организационной деятельности Нахчыванского театра с 1964 по 1987 год. В эти дни в разное время руководителям, художникам и актерам театра, а также другим сотрудникам присваивались различные почетные звания, вручались именные стипендии и премии, почетные грамоты.

Также подчеркивается, что патриотические спектакли имеют большое значение для укрепления чувства любви к Родине у нового поколения, особенно у молодежи, формирования национального духа, всестороннего изучения исторических событий, обогащения их мировоззрения.

**Ключевые слова:** *Нахчыванский Театр, патриотизм, спектакль, режиссер, художник, актер, музыка.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 10.02.2025**
**Son variant 07.03.2025**